

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 39 (23.681)

*26 fevral 2021-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 25-də Bakının Ramana qəsəbəsindəki yaşayış kompleksində şəhid ailələri və müharibə əlillərinə mənzillərin təqdim olunması mərasimində iştirak edib. Dövlətimizin başçısı kompleksdə yaradılan şəraitlə tanış olub.

Prezident İlham Əliyev çıxış edərək vurğulayıb ki, dövlət şəhid ailələri, müharibə əlilləri üçün əlindən gələni edir. Bu günə qədər 9200-ə yaxın şəhid ailəsi, müharibə əlili dövlət tərəfindən mənzillərlə təmin edilib. Təkcə keçən il 1572 mənzil verilibdir. Bu il isə 3 minə yaxın mənzil veriləcək. Müharibə əlillərinə 7200-ə yaxın minik avtomaşını verilib.

Bildirilib ki, Azərbaycan bu sahədə də dünya miqyasında ən qabaqcıl yerlərdədir. Azərbaycan dövləti bu siyasəti bundan sonra da davam etdirəcək.

* * *

Dövlətimizin başçısı həmin gün Bakının Xəzər rayonunda Şağan Reabilitasiya Pansionatının əsaslı təmirdən sonra açılışında iştirak edib, pansionatda yaradılan şəraitlə tanış olub.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 25-də "Signify" (əvvəlki adı "Philips Lighting") şirkətinin baş icraçı direktoru Erik Rondolatı və şirkətin rəhbərliyinin digər nümayəndələrini videoformatda qəbul edib.



## Əhalinin sağlamlığının qorunması və tibbi xidmətin səviyyəsinin yüksəldilməsi uğurla davam etdirilir

***Muxtar respublikada səhiyyə sisteminin inkişafı ilə bağlı qəbul edilmiş Dövlət proqramlarının həyata keçirilməsi, əhalinin sağlamlığının daha etibarlı şəkildə qorunması, onların ən yüksək səviyyədə tibbi xidmətlərlə əhatə olunması sosial siyasətin əsas prioritetlərini təşkil edir.***

2020-ci ildə də əhalinin sağlamlığının qorunması və tibbi xidmətin səviyyəsinin yüksəldilməsi diqqət mərkəzində saxlanılıb. Belə ki, Ordubad Rayon Gigiyena və Epidemiologiya Şöbəsi, Şərur rayonunun Məmmədsabir, Ordubad rayonunun Vənənd, Culfa rayonunun Camaldın kəndlərində həkim ambulatoriyaları, Şərur rayonunun Muğancıq-Mehrab, Qarabürc, Babək rayonunun Nəcəfəlidizə kəndlərində feldşer-mama məntəqələri, Duzdağ Fizioterapiya Mərkəzinin inzibati binası istifadəyə verilib. Həmçinin Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzinin, Şərur, Şahbuz və Culfa Rayon Gigiyena və Epidemiologiya şöbələrinin, Şərur rayonunun Şəhriyar, Ordubad rayonunun Nüsnüs və Yuxarı Əndəmic, Şahbuz rayonunun Ağbulaq kəndlərində həkim ambulatoriyalarının, Darıdağ Arsenli Su Müalicəxanasının yeni binalarının və Ordubad Rayon Uşaq Xəstəxanasının yenidən qurulması davam etdirilib.

İnfrastruktur quruculuğu ilə yanaşı, səhiyyə müəssisələrinə 12 təcili tibbi yardım avtomobili də verilib ki, bu da tibbi personalın işini xeyli asanlaşdırmaqla yanaşı, həm də sakinlərin sağlamlığının qorunmasına, xidmətin keyfiyyətinin yüksəldilməsinə geniş imkanlar açıb.

2020-ci ildə dünyada pandemiya halını alan virusun muxtar respublikada yayılmasının qarşısının alınması sahəsində genişmiqyaslı tədbirlər görülüb, bu məqsədlə Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradılıb, müasir laboratoriya qurulub və lazımi tibbi ehtiyatlar alınıb. Virusla mübarizə məqsədilə səhiyyə müəssisələri ümumi dəyəri 4 milyon 700 min manatdan artıq olan tibbi avadanlıqlar, dərman və ləvazimatlar, həmçinin dezinfeksiyaedicilərlə təmin edilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamlarına əsasən dövlət tibb müəssisələrində çalışan tibb işçilərinə, həmçinin Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzinin pandemiya ilə mübarizədə profilaktik dezinfeksiya tədbirləri həyata keçirən işçilərinə aylıq vəzifə maaşlarının 1-3 misli məbləğində mükafat və müddətli əlavələr ödənilir. Bütün yaşayış məntəqələrində görülən qabaqlayıcı tədbirlərin, davamlı dezinfeksiya işlərinin aparılmasının nəticəsidir ki, ölkə səviyyəsində xəstəliyə ən aşağı yoluxma halı məhz muxtar respublikada müşahidə olunub.

Səhiyyə sahəsində aparılan məqsədyönlü tədbirlər demoqrafik vəziyyətə müsbət təsirini göstərib. Belə ki, muxtar respublikada 2020-ci ildə 4 min 624 uşaq doğulub, təbii artım 1753 nəfər, doğum göstəricisi 10, ölüm göstəricisi 6,2, 1 yaşa qədər uşaq ölümü 12 nəfər olmaqla, 2,6 promil təşkil edib.

Naxçıvan Muxtar Respublikasında uşaqların sağlamlığının qorunması sahəsində işlərin həcminin və keyfiyyətinin artırılması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 9 oktyabr 2018-ci il tarixdə "Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın icrasının davam etdirilməsi nəticəsində uşaqlara göstərilən tibbi xidmətin səviyyəsi xeyli yüksəlib, uşaqların sağlamlıq vəziyyətinin yaxşılaşdırılması, uşaq ölümünün azaldılması istiqamətində müsbət nəticələr əldə edilib. İl ərzində digər Dövlət proqramlarının icrası da daim diqqət mərkəzində saxlanılıb.

Belə ki, muxtar respublikanın səhiyyə müəssisələrində xroniki böyrək çatışmazlığından əziyyət çəkən xəstələrin aktiv müalicəyə cəlb edilməsi, eləcə də xəstələrin dövlət vəsaiti hesabına ixtisaslaşdırılmış müalicə ilə təminatı prioritet istiqamətlərdən biridir. Yaradılmış təminat hesabına hazırda Naxçıvan şəhəri ilə yanaşı, rayon mərkəzi xəstəxanalarında 120 xəstə hemodializ seansı alır. Həyata keçirilən tədbirlər nəticəsində 10 min nəfərdən artıq şəkərli diabet xəstəsinin dərman və özünənəzarət vasitələri ilə təminatı xeyli yaxşılaşmışdır. Muxtar respublikada 27 nəfər böyrək, 6 nəfər qaraciyər transplantasiyası olunan və 57 nəfər dağınıq skleroz xəstələri də hər cür dövlət qayğısı ilə əhatə ediliblər.

Son illər qan xidmətinin inkişafına da xüsusi diqqət yetirilir. Naxçıvan Muxtar Respublika Xəstəxanasında mövcud şərait Mərkəzi Qan Bankının fəaliyyətinə geniş imkanlar açıb. Burada qan komponentlərinin alınması və uzun müddət saxlanılması üçün hər cür şərait yaradılıb.





Naxçıvanda səhiyyə turizmi də diqqətdə saxlanılan məsələlərdəndir. Muxtar respublikada Duzdağ Fizioterapiya Mərkəzi, Darıdağ Arsenli Su Müalicəxanası bu işdə mühüm rol oynayır.

Ötən il tibb işçilərinin ixtisas səviyyəsini artırmaq məqsədilə çoxsaylı seminar və konfranslar keçirilib, Bakı şəhəri və Türkiyə Respublikasının müxtəlif klinika və xəstəxanalarına təkmilləşdirmə kurslarına göndərilmiş həkim və orta tibb işçilərinin sertifikasiya işi davam etdirilib.

Pandemiya ilə əlaqədar karantin rejiminə baxmayaraq, 2020-ci il ərzində də müxtəlif klinikalardan yüksəkixtisaslı həkimlər və kollektivləri muxtar respublikaya dəvət olunaraq yerli həkimlərlə birgə xeyli sayda əməliyyatlar aparılıb.

Yoluxucu xəstəliklərin qarşısının alınması məqsədilə daim dezinfeksiya və dezinseksiya tədbirləri, larviolla delervasiya aparılır. Əhali arasında geniş səhiyyə maarifi işləri aparılmaqla, müxtəlif yaş qruplarının dispanserizasiya tədbirləri ardıcıl davam etdirilir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

***Muxtar respublikamızda real sektorun inkişafı və iqtisadi fəallığın davamlı olaraq dəstəklənməsi istiqamətində səmərəli kreditləşmənin mühüm əhəmiyyəti vardır. Bu istiqamətdə aparılan siyasət ötən dövrdə iqtisadiyyatın daha da şaxələnməsi və əhalinin rifahının artmasını təmin edən yeni məşğulluq sahələrinin yaranmasına səbəb olub.***

## Səmərəli kreditləşmə yüksək iqtisadi fəallığı artırır

Bütün dünyada böyük çətinliklər yaratmış pandemiyaya baxmayaraq, ötən 2020-ci ilin təhlilləri göstərir ki, iqtisadiyyatın əsas sahələrinin kredit ehtiyaclarının ödənilməsində müsbət dinamika qorunub saxlanılıb. Belə ki, Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindən aldığımız məlumata əsasən Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən banklar və kredit təşkilatları tərəfindən 1 yanvar 2021-ci il tarixə muxtar respublikanın iqtisadiyyatına yönəldilən kredit qoyuluşunun həcmi 212 milyon 399 min manat olub. Bu kreditlərin 7 milyon 933 min manatı qısamüddətli, 204 milyon 466 min manatı isə uzunmüddətli kreditlərin payına düşür. 2020-ci il ərzində verilən kreditlərin həcmi 179 milyon 473 min manat təşkil edib ki, bu kreditlərin 13 milyon 357 min manatı kənd təsərrüfatı, 18 milyon 561 min manatı sənaye, 562 min manatı tikinti, 3 milyon 571 min manatı daşınmaz əmlakla əlaqədar ipoteka kreditlərinin verilməsinə, 136 milyon 991 min manatı digər kommunal, sosial və istehlak kreditlərinin verilməsi kimi sahələrə yönəldilib. Sahələr üzrə nəzər saldıqda ilk sırada 76,3 faizlə istehlak kreditlərini, daha sonra isə sırası ilə 10,4 faizlə sənaye, 7,4 faizlə kənd təsərrüfatı sahələrini görə bilərik. Kənd təsərrüfatı üzrə verilmiş kreditlərin strukturuna gəldikdə isə burada bitkiçilik məhsulları istehsalına 1 milyon 190 min manat kredit verilib. Heyvandarlıq məhsulları istehsalını artırmaq üçün ötən il muxtar respublikada 11 milyon 205 min manata yaxın kredit verilib ki, bu da bir il əvvəlki rəqəmlə müqayisədə 1 milyon 222 min manat çoxdur.

Ötən il ərzində kredit təşkilatları tərəfindən muxtar respublika iqtisadiyyatına yönəldilən kredit qoyuluşuna nəzər saldıqda kredit təşkilatları arasında 86 faizlə özəl bankların üstünlük təşkil etdiyini görürük. Bunlardan sonrakı yerləri 10,4 faizlə dövlət bankları, 3,6 faizlə bank olmayan kredit təşkilatları tutmaqdadır.

Ötən dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən təsdiq edilmiş "2019-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında rəqəmsal ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram"a uyğun olaraq muxtar respublikada fəaliyyət göstərən bank qurumları tərəfindən nağdsız ödənişlərin həcminin artırılması istiqamətində görülən işlər də uğurlu olub. Belə ki, muxtar respublikada nağd pul dövriyyəsi 2020-ci ildə daha da azalaraq 16,8 faizə enib. Qeyd edək ki, 2019-cu ildə bu rəqəm 29,2 faiz olub. Bu dövrdə bankomatların sayı artaraq 114, POS-terminalların sayı artaraq 1278-dən 1410-a, ödəniş terminallarının sayı isə artaraq 54-dən 79-a çatdırılıb.

Təhlil olunan dövrdə bankların əhali ilə apardığı işlərin digər bir mühüm istiqaməti sayılan əmanətlərin cəlb edilməsi sahəsində də müəyyən işlər görülüb. Belə ki, muxtar respublikada əmanətlərin cəlb olunması üzrə fəaliyyət göstərən banklarda 1 yanvar 2021-ci il tarixə fiziki şəxslərin əmanətlərinin həcmi 9 milyon 876 min manat, o cümlədən milli valyuta ilə 8 milyon 907 min, xarici valyuta ilə 969 min manat təşkil edib. Bir il əvvəlki dövrlə müqayisədə banklara qoyulan əmanətlərin həcmində milli valyuta ilə xeyli artım, xarici valyuta ilə cəlb edilən əmanətlərin həcmində isə qismən artım dinamikası görürük.

Bəhs edilən göstəriciləri və dünya iqtisadiyyatında baş verən proseslərlə mövsümi faktorları da nəzərə alsaq, ümumilikdə, muxtar respublikada bank sektorunda maliyyə dayanıqlığının təmin olunduğunu görərik. Əldə olunmuş nəticələr 2021-ci ildə də muxtar respublikada fəaliyyət göstərən bütün bank qurumları qarşısında qoyulmuş elektron ödəniş məkanının formalaşdırılması, nağd pul kütləsinin bank dövriyyəsinə cəlb edilməsi, kredit portfelinin keyfiyyətinə nəzarətin gücləndirilməsi, pul dövriyyəsinin təşkilinin daha da təkmilləşdirilməsini, nağdsız hesablaşmaların miqyasının artırılması kimi vəzifələrin uğurla həll olunacağını proqnoz etməyə imkan verir.

**✍ Əli CABBAROV**

# Xocalı faciəsi xalqımızın Vətənə, torpağa sədaqətinin nümunəsidir

***Tarix səhnəsində zaman-zaman elə hadisələr yaşanır ki, onlar mahiyyət etibarilə məxsus olduğu xalqın yaddaşına əbədi həkk olunur, əsrlər ötsə, dövr dəyişsə də unudulmur. Bu mənada, təkcə Azərbaycan xalqının deyil, bəşəriyyətin sağalmaz yarasına çevrilən, silinməz qan yaddaşımız sayılan Xocalı soyqırımının nəticələri ilbəil daha dərindən təhlil edilir, araşdırılır, öyrənilir, dünyada geniş şəkildə təbliğ olunur, silsilə tədbirlər keçirilir, faciə qurbanlarının xatirəsi daim əziz tutulur. Bəşər tarixinin ən dəhşətli faciəsinin törədilməsindən artıq 29 il ötür. Belə ki, Azərbaycanın Xocalı şəhəri 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni işğalçıları tərəfindən yerləyeksan edilib. Erməni şovinistlərinin qəddarlıqla həyata keçirdiyi bu amansız və qanlı cinayətdə Xocalı şəhərinin sakinləri son anadək özlərini qəhrəman kimi aparıb, axır nəfəslərinədək vuruşaraq düşmən qarşısında əyilməyiblər. Ümummilli liderimiz Heydər Əliyev bu faciəni bəşəriyyətə qarşı yönəlmiş ən qəddar soyqırımı kimi dəyərləndirərək deyirdi: “Xocalı faciəsi bir tərəfdən hər bir Xocalı sakininin öz torpağına, millətinə, Vətəninə sədaqətliliyinin nümunəsidir. İkinci tərəfdən də Ermənistanın millətçi, vəhşi qüvvələri tərəfindən Azərbaycana qarşı edilən soyqırımıdır – vəhşiliyin görünməmiş bir təzahürüdür”.***

Xocalı mühüm geostrateji mövqeyi ilə seçilir. Qarabağdakı yeganə hava limanı da məhz burada yerləşirdi. Ermənilərin diqqətini Xocalıya yönəltməsinin əsas səbəbi də bu şəhərin işğal edilməsi ilə Dağlıq Qarabağa nəzarətin tam ələ keçirilməsi, eyni zamanda hava limanı vasitəsilə Ermənistanla daha rahat əlaqə yaradılmasına nail olmaq idi. Strateji mövqeyi ilə yanaşı, Xocalı həm də ölkəmizin zəngin tarixə malik ərazilərindən biridir. Bu ərazinin tarixində Azərbaycanın Son Tunc və Erkən Dəmir dövrləri mədəniyyətinə aid kurqanlar özünəməxsus yer tutur. Xüsusilə tunc silahları və başlıca olaraq boz rəngli keramika məmulatı ilə fərqlənən bu mədəniyyətə məxsus abidələr ilk dəfə Xocalı yaxınlığında, daha sonra isə Qarabağın böyük bir hissəsində və Gədəbəydə aşkara çıxarılmış, əsas yaşayış məntəqələrinin adına görə Xocalı-Gədəbəy mədəniyyəti adlandırılmışdır. Tarixçilər müəyyən ediblər ki, Xocalı-Gədəbəy mədəniyyəti eradan əvvəl V-III minilliklərdə Azərbaycanda formalaşan Kür-Araz mədəniyyətinin və ondan sonra burada mövcud olan Qarabağ mədəniyyətinin varisidir. Xocalı mühüm arxeoloji abidələri ilə Azərbaycanın qədim tarixini özündə əks etdirdiyindən ermənilərin burada həyata keçirdikləri soyqırımının bir məqsədi də xalqımıza məxsus mədəniyyəti yer üzündən silmək idi. Təsadüfi deyil ki, Xocalı şəhəri işğal ediləndən dərhal sonra onun ətrafında olan və dünyanın ən qədim məzarlıqlarından sayılan Xocalı qəbiristanlığı da xüsusi texnika ilə dağıdılmışdır.

Xocalının işğalı düşmənin əvvəlcədən hazırladığı plan üzrə baş tutmuşdu. Belə ki, Xocalı hələ 1991-ci ilin oktyabr ayından blokada vəziyyətinə alınmışdı. 1991-ci ilin oktyabrında Tuğ və Səlakətin kəndləri işğal olunandan sonra Xocavənd də ermənilərin nəzarəti altına keçmişdi. 1992-ci ilin yanvarında ermənilər Xocalı ətrafındakı Axullu, fevral ayında isə Malıbəyli və Quşçular kəndlərini işğal etdilər. Həmin kəndlərin işğalından bir neçə gün sonra Dağlıq Qarabağın ən iri yaşayış məskənlərindən olan Qaradağlı 366-cı motoatıcı alayın, eləcə də müxtəlif xarici ölkələrdən gətirilmiş erməni muzdlu döyüşçülərin hesabına işğal olundu. Xocalını əhatə edən Daşbulaq, Mehdikənd, Ballıca, Həsənabad, Pirəməki, Noraguh və Mirzəcan kəndlərində xeyli qüvvə toplanmışdı. Avtomat və pulemyotlarla silahlanmış yüzlərlə erməni yaraqlısının toplandığı bu kəndlərdə çox sayda raket qurğuları və zirehli texnikalar vardı. Fevralın ortalarından Xocalı erməni silahlıları tərəfindən mühasirəyə alınmışdı və hər gün ağır texnikadan atəşə tutulurdu. İşğal planı 1992-ci il fevralın 25-dən 26-na keçən gecə təşkil olunmuş, Ermənistan silahlı qüvvələrinin bölmələri ilə yanaşı, keçmiş sovet ordusunun 366-cı motoatıcı alayı da 7 min nəfərin yaşadığı Xocalı şəhərinə basqın etmiş, günahsız insanları, dinc sakinləri xüsusi amansızlıqla qətlə yetirmişlər. Bu kütləvi qırğın nəticəsində 106-sı qadın, 63-ü uşaq, 70-i qoca olmaqla, 613 dinc sakin qətlə yetirilmiş, 1275 nəfər isə əsir götürülmüşdür. Onlardan 150-nin taleyi hələ də məlum deyil. 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirmişdir. Düşmən gülləsinə tuş gəlib yaralanan 487 nəfərdən isə 76-sı uşaq idi.

Təəssüflər olsun ki, həmin dövrdə Azərbaycana rəhbərlik edənlər Xocalı soyqırımına biganə münasibət göstərmiş, xalqımıza qarşı törədilən cinayəti ört-basdır etməyə çalışmışlar. Yalnız həmin dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışan görkəmli dövlət xadimi Heydər Əliyev ilk dəfə Naxçıvanda Xocalı soyqırımı haqqında xüsusi bəyanat vermiş, faciəni törədənlərin və səbəbkarların məsuliyyətə cəlb olunmasını tələb etmişdir. Ulu öndərin 1993-cü ildə Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra isə Xocalı faciəsinə hüquqi-siyasi qiymət verilmişdir. Bu soyqırımı haqqında həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması üçün təsirli tədbirlər görülmüşdür. 1994-cü ilin fevralında ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Respublikasının Milli Məclisi Xocalıda baş vermiş hadisələri geniş təhlil edərək “Xocalı Soyqırımı Günü haqqında” Qərar qəbul etmiş, BMT-yə, dünya dövlətlərinə bu qətliamın gerçək mahiyyətini açıqlayaraq dünya ictimaiyyətini erməni terrorizminə qarşı qəti tədbirlər görməyə çağırmışdır. Qəbul edilmiş qərara əsasən bəşər tarixinin qanlı səhifələrindən olan Xocalı hadisələri ilə əlaqədar hər il fevralın 26-sı Xocalı Soyqırımı Günü elan olunmuşdur. Görkəmli dövlət xadimi Heydər Əliyevin “Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqəsi elan edilməsi haqqında” 1997-ci il fevralın 25-də imzaladığı Sərəncamla hər il fevral ayının 26-sı saat $17^{00}$-da ölkəmizdə Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunur. Azərbaycan xalqı Xocalıda qətlə yetirilmiş yüzlərlə həmvətənimizin xatirəsini daim əziz tutur, torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhid olanları ehtiramla yad edir.

Son illərdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Xocalı həqiqətlərinin dünyaya tanıdılması, erməni terrorçularının həyata keçirdiyi insanlıq əleyhinə cinayətlərin beynəlxalq miqyasda ifşası sahəsində xeyli iş görülüb, xarici dillərdə kitablar nəşr olunub, filmlər çəkilib, Xocalı mövzusu müxtəlif beynəlxalq tədbirlərdə gündəmə gətirilib, bununla bağlı internet saytları yaradılıb. Heydər Əliyev Fondu tərəfindən 2008-ci ildə “Xocalıya ədalət!” Beynəlxalq İnformasiya və Təşviqat Kampaniyasının təsis edilməsi atılan mühüm addımlardandır. Prezident İlham Əliyevin 2014-cü il 13 fevral tarixli “Xocalıya ədalət!” kampaniyasının keçirilməsi ilə bağlı tədbirlər haqqında” Sərəncamına əsasən bu tədbirlərin beynəlxalq səviyyədə daha da genişləndirilməsi qərara alınıb. Bu istiqamətdə aparılan səmərəli işin nəticəsidir ki, hər dəfə faciənin ildönümündə dünyanın bir çox ölkəsində Xocalı qurbanlarının əziz xatirəsi anılır, mitinqlər, piketlər keçirilir, erməni vəhşiliklərini əks etdirən fotoşəkillər, filmlər, materiallar nümayiş olunur. Dünya ölkələrinin nüfuzlu qəzetlərində faciəyə həsr olunmuş məqalələr çap edilir, televiziya və radiolarda verilişlər hazırlanır. Azərbaycan dövlətinin apardığı uğurlu xarici siyasət nəticəsində dünya dövlətləri ermənilərin törətdikləri bu soyqırımına öz münasibətlərini bildirir və Xocalı qətliamını kəskin pisləyirlər. 2010-cu ildə İslam Əməkdaşlıq Təşkilatı “Xocalıya ədalət!” kampaniyasını dəstəkləyən xüsusi qətnamə qəbul etmişdir.

Ölkə Prezidenti cənab İlham Əliyevin son 17 ildə həyata keçirdiyi qüdrətli dövlət, güclü ordu strategiyası, milli birlik və döyüşçülərimizin ruh yüksəkliyi sayəsində 2016-cı ilin Aprel döyüşlərində və 2018-ci ilin may ayında qazanılan zəfərlər Böyük Qələbə gününü daha da yaxınlaşdırmışdı. 2020-ci il sentyabrın 27-də işğalçı Ermənistan silahlı qüvvələrinə qarşı başlanılan əks-hücum əməliyyatının parlaq qalibiyyətlə yekunlaşması məhz bu baxımdan heç də təsadüfi deyildi. 44 gün davam edən hərbi əməliyyatlar çərçivəsində uğurlu strategiyanın tətbiqi ilə ən müasir silahlardan istifadə nəticəsində ordumuzun bölmələri işğal altındakı ərazilərimizi yağılardan təmizlədi, düşmənin komanda-idarəetmə məntəqələri, raket və artilleriya vasitələri, döyüş texnikaları və təminatı sıradan çıxarıldı, düşmən faktiki olaraq iflic vəziyyətinə gətirildi. Bununla da beynəlxalq təşkilatların 30 il ərzində edə bilmədiklərini Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə gerçəkləşdirərək hərb tarixinə qısa zamanda böyük nailiyyət kimi yenilik gətirdi. Vətən müharibəsi nəticəsində torpaqlarımızın böyük bir qismi işğaldan azad olundu. Ümumilikdə, Qarabağ şəhidlərinin, eləcə də həm Xocalının, həm də xocalıların qisası alındı. Azərbaycan Ordusunun hücumuna, Vətən oğullarının qətiyyəti qarşısında davam gətirə bilməyən düşmən noyabrın 10-da kapitulyasiya haqqında Bəyanatı imzalamağa məcbur qaldı. Bəyanata uyğun olaraq noyabrın 20-də Ağdam, noyabrın 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın rayonu işğaldan azad edildi. Döyüş meydanında məğlubiyyəti ilə barışmayan Ermənistan hakimiyyətinin göstərişi əsasında erməni silahlı qüvvələrinin yaşayış məntəqələrimizi atəşə tutması, 44 gündə 100-ə yaxın mülki şəxsin ölümünə, 400-dən artıq insanın yaralanmasına səbəb olan terror aktlarını törədilməsinə, eyni zamanda 10 noyabr razılaşmasına uyğun olaraq Ağdam, Kəlbəcər və Laçını boşaldarkən edilən vəhşiliklərə qarşı bəzi ölkələrin biganə münasibəti, görməzdən gəlmələri Dağlıq Qarabağ münaqişəsinin həlli prosesinin 30 il uzanmasının səbəblərini bütün aydınlığı ilə üzə çıxardı.

Artıq azad olunan əzəli torpaqlarımızda tikinti-quruculuq, abadlıq tədbirlərinə başlanılıb, ölkə Prezidenti cənab İlham Əliyev dəfələrlə Qarabağa səfər edərək həyata keçirilən işlərlə yaxından maraqlanıb. Son vaxtlarda baş verən hadisələr isə ermənilərin hələ də öz məkrli planlarından, mənasız xülyalarından əl çəkmədiyini, revanşist xislətinə qapıldığını göstərir. Lakin 44 gün ərzində müzəffər Ordumuz, “Dəmir yumruq” onlara elə bir layiqli zərbə vurub ki, daha nə müharibə etməyə gücləri, nə də bu yöndə təxribata əl atmağa cürətləri qalıb. Fevralın 14-də Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarında səfərdə olarkən Prezident cənab İlham Əliyev bu məsələdən bir daha söz açaraq bildirib ki, biz hər şeyə diqqət yetiririk, hər şeyə nəzarət edirik və heç vaxt imkan verə bilmərik ki, erməni faşizmi bir daha başını qaldırsın. Ölkə başçısı deyib: ***“Biz erməni faşizmini məhv etmişik. Düşməni öz doğma torpaqlarımızdan qovmuşuq. Onları torpaqlarımızdan rədd etmişik. Ermənistan ordusunu, demək olar ki, məhv etmişik. Ermənistan ordusu yoxdur, dağılıb. Həm texnika dağılıb, həm canlı qüvvə dağılıb. Özləri etiraf edirlər ki, müharibə zamanı onların 10 min fərarisi olub...”***

**“Şərq qapısı”**

# Xocalı faciəsinin ildönümü qeyd olunub



***Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki Daimi Nümayəndəliyində Xocalı soyqırımının 29-cu ildönümünə həsr olunmuş anım tədbiri keçirilib.***

Əvvəlcə Xocalı soyqırımı zamanı qətlə yetirilmiş həmvətənlərimizin və bütövlükdə, Vətən uğrunda canlarını qurban vermiş bütün şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən Daimi Nümayəndəliyin rəhbəri Bəxtiyar Əsgərov Xocalı faciəsi haqqında ətraflı məlumat verərək erməni silahlı dəstələri tərəfindən xalqımıza qarşı törədilən bu cinayətin ağır nəticələrindən danışıb. Qeyd olunub ki, ümummilli liderimiz Heydər Əliyev bu faciəni bəşəriyyətə qarşı yönəlmiş ən qəddar soyqırımı kimi dəyərləndirib. 1994-cü ildə ulu öndərin təşəbbüsü ilə Azərbaycan Parlamenti 26 fevralı “Xocalı Soyqırımı Günü” kimi qəbul edildikdən sonra Azərbaycan diasporu Xocalı həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində fəal iş görməyə başlayıb. Xocalı soyqırımı qurbanlarının xatirəsi bu gün dünyanın yüzlərlə şəhərlərində anılır. Qanlı qırğınla bağlı faktlar beynəlxalq təşkilatlar qarşısında bir daha nümayiş etdirilir və bundan sonra da etdiriləcəkdir.

Bildirilib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin inamla həyata keçirdiyi daxili və xarici siyasət, erməni qəsbkarlığının ifşası istiqamətində uğurlu addımlar kimi bəhrəsini verməkdədir. İlbəil daha da qüdrətlənən, müdafiə potensialı artan Azərbaycan Ordusu artıq düşmənin çirkin niyyətləri qarşısında ən böyük və keçilməz maneəyə çevrilib. 2020-ci il 27 sentyabrda erməni təcavüzünə qarşı başlanan 44 günlük Vətən müharibəsi nəticəsində Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Milli Ordumuzun 30 ilə yaxın düşmən tapdağında inləyən torpaqlarımızı, bütövlükdə, işğaldan azad etməsi sübut etdi ki, problemin sülh və danışıqlar yolu ilə həll olunmasına həmişə sadiq qalan Azərbaycan məsələnin hərbi müstəvidə qısa zaman ərzində həll edilməsinə də qadirdir.

Daimi Nümayəndəliyin rəhbəri diqqətə çatdırıb ki, hər il Xocalı faciəsi qurbanlarının əziz xatirəsi Naxçıvan Muxtar Respublikasında da anılır, bu il də Naxçıvan şəhərinin Dövlət Bayrağı Meydanındakı xatirə kompleksində Xocalı şəhidləri ehtiramla xatırlanacaq, onların əziz xatirəsi Vətən müharibəsində alınmış intiqamın qüruru ilə yad ediləcəkdir.

Sonda Daimi Nümayəndəlikdə hazırlanmış Xocalı soyqırımını özündə əks etdirən fotostendə baxılıb.

**AZƏRTAC**

AMEA Naxçıvan Bölməsində və muxtar respublikanın ali təhsil ocaqlarında Xocalı faciəsinin 29-cu ildönümünə həsr olunmuş elmi konfranslar keçirilib.

Tədbirlərdə Xocalı soyqırımı qurbanlarının və ölkəmizin ərazi bütövlüyünün bərpası uğrunda aparılan döyüşlərdə şəhid olmuş qəhrəman Vətən oğullarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

AMEA Naxçıvan Bölməsində “Xocalı faciəsi: səbəbləri, nəticəsi və dərsləri” mövzusunda konfransı giriş sözü ilə açan bölmənin sədri, akademik İsmayıl Hacıyev bildirib ki, ermənilərin azərbaycanlılara qarşı əsrlərboyu həyata keçirdikləri soyqırımı və etnik təmizləmə siyasəti onların “böyük Ermənistan” yaratmaq xülyasına xidmət edən cinayət əməlləridir. Akademik ermənilərin məqsədli şəkildə Azərbaycan torpaqlarına köçürülməsi, Dağlıq Qarabağ münaqişəsinin meydana gəlməsi, azərbaycanlıların öz doğma torpaqlarından deportasiyası kimi məsələlərə toxunub, 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun şanlı zəfərindən danışıb. Sonra məruzələr dinlənilib.

“Naxçıvan” Universitetində “Xocalı soyqırımı bəşəriyyətə qarşı cinayətdir” mövzusunda keçirilən elmi konfransda universitetin rektoru, dosent Nurlana Əliyeva çıxış edərək Xocalı soyqırımını mənfur ermənilərin Azərbaycan xalqına qarşı həyata keçirdiyi soyqırımı siyasətinin növbəti mərhələsi kimi təhlil edib. Qeyd olunub ki, yalnız ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra Xocalıda törədilən cinayətlər barədə əsl həqiqətlər dünya ictimaiyyətinə çatdırılıb. Tədbirdə “Xocalı faciəsi tariximizin sağalmayan yarasıdır” mövzusunda məruzə dinlənilib, Vətən müharibəsi iştirakçıları – baş leytenant Ağababa Bədəlov, baş gizir Ceyhun Hüseynov, gizir Ceyhun Məmmədov, müddətdən artıq xidmət edən hərbi qulluqçu İlkin Baxşəliyev Vətən müharibəsi zamanı keçdikləri şərəfli döyüş yolundan danışıblar, onlara universitet adından plaket və qiymətli hədiyyələr təqdim edilib.

Naxçıvan Müəllimlər İnstitutunda keçirilən konfransı giriş sözü ilə açan institutun rektoru Azad Novruzov Xocalı soyqırımını Azərbaycan xalqının yaddaşından heç vaxt silinməyəcək qəddar və dəhşətli cinayət adlandırıb, Vətən müharibəsində qazandığımız qələbənin tarixi əhəmiyyətindən söz açıb

Konfransda “Xocalı həqiqətləri: insanlığa qarşı baş vermiş cinayətlərin tarixi kökləri” mövzusunda məruzə dinlənilib.

Tədbirlərdə ali təhsil ocaqlarının tələbələrinin ifasında ədəbi-bədii kompozisiyalar təqdim edilib, rəsm əsərlərindən ibarət sərgiyə baxış olub.

**Xəbərlər şöbəsi**

# Vətənin bütövlüyünə, gələcəyinə xidmət örnəyi

## Naxçıvandakı şəhid ailələri və qazilər hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar

*Azərbaycan tarixinin şanlı Zəfər salnaməsini yazarkən çox canlar fəda etdi xalqımız. İgid oğullarımız "Öncə Vətən", – deyib sinələrini Vətənə sipər edərək azadlıq mübarizəsinə qoşuldu, yurdumuzu murdar yağı tapdağından təmizlədi. Parlaq qələbənin qazanılması uğrunda müqəddəs savaşda minlərlə Vətən övladı ilə birlikdə Naxçıvan torpağının yetirdiyi igid oğullarımızın da böyük payı var. Bunu Prezidentimiz cənab İlham Əliyevin* ***"Bildirməliyəm ki, İkinci Qarabağ müharibəsində digər bütün bölgələrdən olan hərbçilərlə bərabər, naxçıvanlılar da böyük qəhrəmanlıq göstəriblər və torpaqlarımızın azad edilməsi işində fədakarlıq göstəriblər, şəhidlər veriblər"*** *fikirləri bir daha təsdiq edir.*

İgidlik göstərərək şəhidlik zirvəsinə yüksələnlər sırasında Heydər Əliyev adına Hərbi Liseyin məzunları ilə bərabər, Naxçıvan Əlahiddə Ümumqoşun Orduda təşkil olunan ixtisas hazırlığı kurslarında peşəkar hərbçi kimi yetişən oğullarımızın II Qarabağ müharibəsindəki şücaətləri, göstərdikləri qətiyyət muxtar respublikamızda vətənpərvərlik və millilik ideologiyasının təbliğinə nə qədər önəm verildiyini bir daha sübut etdi. Şəhidlərin Naxçıvan Beynəlxalq Hava Limanında minlərlə insan tərəfindən qarşılanması, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun şəhidlərin qarşılanma mərasimlərində şəxsən iştirak etməsi, onların xatirəsinə ehtiramını bildirməsi, şəhid ailələri ilə görüşüb onlara başsağlığı verməsi xalqımızın, dövlətimizin birliyindən, aliliyindən, müdrikliyindən xəbər verdi.

Ali Məclisin Sədri muxtar respublikanın bütün dövlət qurumlarına şəhid ailələrinə, qazilərə və müharibə iştirakçılarına həm maddi, həm mənəvi dəstək göstərilməsini bir vəzifə olaraq tapşırmaqla onlara hörmət və ehtiramın yüksək səviyyədə olduğunu təsdiq etdi.

Muxtar respublika rəhbəri Naxçıvan Qarnizonunun Hərbi Qospitalında qaziləri ziyarət edərək, onların sağlamlığı, göstərilən tibb xidmətinin səviyyəsi ilə maraqlandı: Ali Məclis Sədrinin: ***"Vətənə layiqincə xidmət etmək və bu xidmətin dövlət tərəfindən qiymətləndirilməsi isə Vətənin bütövlüyünə, gələcəyinə xidmət edir. Ordunun qüdrəti və döyüş qabiliyyətinin yüksək olması yalnız güclü və modern silahlarla ölçülmür. Ordunu güclü edən onun sıralarında cəsur və vətənpərvər gənclərin olmasıdır"*** fikirləri hər bir hərbçiyə qürur hissi yaşatmaqla bərabər, "bu ölkə üçün nə etsəm, azdır" qənaətini daha da artırdı.

Qələbənin qazanılmasında əvəzsiz xidmətləri olan Azərbaycan Silahlı Qüvvələrinin əsgər və zabitləri, o cümlədən Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun hərbçiləri Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan tərəfindən orden və medallarla təltif edildi, onlara xüsusi hərbi rütbələr verildi, Azərbaycan Prezidentinin təqaüdü təyin edildi. Həmçinin müharibə şəhidlərinin və qazilərinin adlarının əbədiləşdirilməsi, onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün fərman və sərəncamlar imzalandı. "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli Fərmanında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin imzaladığı 2021-ci il 7 yanvar tarixli Fərmanına əsasən Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin yaradılması qazilərə və şəhid ailələrinə göstərilən diqqət və qayğının bariz nümunəsidir.



Azərbaycan Respublikasının bütün şəhər və rayonlarında olduğu kimi, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Fərmanı əsasında Naxçıvan Şəhər İcra Hakimiyyəti Aparatında da belə bir şöbə yaradılıb. 2021-ci ilin yanvar ayında yaradılan şöbənin iş planı hazırlanaraq təsdiq edilib, Vətən müharibəsi iştirakçıları və şəhidlər barədə verilmiş fərman, sərəncam və qanunlar, eləcə də digər qanunverici sənədləri toplanıb. Onların qayğı və problemlərinin vaxtında və diqqətlə, yerindəcə həll edilməsi üçün yaradılan yeni şöbənin müdiri vəzifəsinə təyin olunan İsmayıl Gülməmmədovla şöbənin fəaliyyət istiqaməti haqqında söhbət etdik.

İsmayıl müəllim bildirdi ki, qısa vaxt ərzində Naxçıvan şəhəri üzrə şəhidlərin və qazilərin siyahıları dəqiqləşdirilib, onlar haqqında ətraflı məlumatlar – yaşayış və qeydiyyat yerləri, doğum və ölüm tarixləri, yaralanma yerləri, ailə tərkibləri, dövlət təltifləri, şəhidlərin dəfn edildikləri yerlər və sair onlar üçün hazırlanmış məlumat – sorğu anketlərində əks olunub. Həmçinin Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsi və Dövlət Sosial Müdafiə Fondunun Naxçıvan Şəhər Şöbəsi ilə əlaqə saxlanılıb, müharibə və iştirakçılar barədə əlavə məlumatlar əldə edilib.

Şəhid ailələri, qazilərlə görüş, onların ziyarət edilməsi ilə bağlı aylıq təqvim planı da hazırlanıb və təqvim əsasında hər bir ailədə görüşlər olub, onların qayğı və problemləri qeydə alınıb, aradan qaldırılması üçün müvafiq tədbirlər görülür. Həll edilməsi digər dövlət orqanlarının səlahiyyətinə aid olan məsələlər həmin orqanlara göndərilir və nəticəsi diqqətdə saxlanılır. İsmayıl müəllim onu da qeyd etdi ki, yeni yaradılmış bu şöbə işini günün tələbləri səviyyəsində quraraq Azərbaycan Respublikası Prezidenti və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qarşıya qoyduğu vəzifə və tapşırıqları layiqincə yerinə yetirmək üçün bütün imkanlardan səmərəli istifadə edir. Məqsəd ondan ibarətdir ki, şəhid ailələri, müharibə iştirakçıları maksimum dərəcədə qayğı ilə əhatə olunsun, hər hansı bir çətinliklə qarşılaşmasınlar. Bununla yanaşı, ailələrlə görüşlər zamanı dövlətin bu ailələrə aid yeni normativ sənədlərlə vaxtında tanış olmaları və ondan faydalanmaları üçün izahat işləri, maarifləndirici söhbətlər aparılır.

Şöbənin gördüyü işləri biz də şəhid ailələri və qazilərimizin dilindən eşitmək istədik. Bunun üçün bir neçə şəhid ailəsi və qazi ilə görüşdük, onlarla söhbətləşdik. Şəhid gizir Bağır Ələkbərovun ailəsində olarkən atası Əsəd Ələkbərov bildirdi ki, muxtar respublikamızda şəhid ailələrinə dövlətimiz tərəfindən böyük qayğı göstərilir. İstər şəhidlərin Naxçıvana gətirilməsi, istərsə də hava limanında qarşılanma mərasiminin təşkil edilməsi, xüsusilə də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin rəhbərliyi ilə onlara böyük ehtiramın ifadə olunması bizi çox qürurlandırdı. Dövlətimizə minnətdarıq ki, sonrakı proseslərdə də – dəfn mərasimlərinin təşkili, onların məzarlarının götürülməsi biz şəhid ailələrinə həm maddi, həm də mənəvi dəstək idi. Burada Naxçıvan sakinlərinin, ayrı-ayrı idarə və təşkilatların, gənclərin şəhidlərə göstərdiyi böyük diqqəti də vurğulamaq istəyirəm. Həqiqətən, bir şəhid ailəsi, yaxınları olaraq hiss etdik ki, bizim arxamızda həm dövlət, həm də xalq dayanıb. Buna görə də hər kəsə öz minnətdarlığımızı bildiririk.

Bəs dövlət qurumlarından hansıları indi sizinlə daha çox maraqlanır? – sualına isə müsahibimiz cavab verdi ki, Naxçıvan Şəhər İcra Hakimiyyətinin əməkdaşları mütəmadi olaraq bizimlə görüşüb, əlaqə saxlayırlar. İcra Hakimiyyətinin Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin əməkdaşları, demək olar ki, tez-tez evimizdə olurlar, bizə səmimi qayğı, nəvazişlə yanaşırlar.

Bu fikirləri leytenant, şəhid Nihat Seyidovun ailəsində olarkən də eşitdik. Şəhid atası bizimlə söhbətində dedi ki, oğlu oktyabrın 15-də Vətən uğrunda gedən döyüşlərdə şəhid olub. Təbii ki, şəhid xəbəri, övlad itkisi ilə barışmaq çətin olsa da, həm dövlətimiz, həm bütün naxçıvanlılar şəhidlərimizə göstərdikləri ehtiramla hər birimizin dərdinə şərik oldular. Bəzən küçədə, şəhərdə və yaxud hansısa bir təşkilata yolumuz düşəndə şəhid ailəsi olduğumuzu biləndə bizə həddindən artıq hörmətlə yanaşır, dərd-sərimizi öyrənməyə, nəsə bir kömək etməyə çalışırlar. Bütün bunlar bizə böyük təsəlli verir, hər birimizdə fəxarət hissi yaşadır. Dövlət qurumlarının bizə münasibətinə gəldikdə isə, deməliyəm ki, muxtar respublika rəhbərimizin birbaşa tapşırıq və göstərişi ilə Naxçıvan Şəhər İcra Hakimiyyəti bu sahədə xüsusi fəallıq göstərir. Ev və məişət qayğılarımızla maraqlanır, davamlı olaraq hansı sahədə kömək edə biləcəklərini soruşurlar. Sağ olsunlar, istər dəfn və yas mərasimlərinin təşkili, istərsə də dövlətimiz tərəfindən mükafatların verilməsində hər cür köməklik ediblər. Elə bu gün də bu dəstək davam edir.

Şəhid İbrahim İbrahimovun ailəsində də mehribanlıqla qarşılanırıq. Şəhidin xanımı Gülsüm İbrahimova deyir ki, ailə başçısının yoxluğu ilə barışmaq çətin olsa da, bu gün həm dövlətimizin, həm də bütün Naxçıvan əhalisinin şəhidlərə, onların ailə üzvlərinə qarşı nümayiş etdirdikləri yüksək münasibət onları ayaqda mətin qalmağa, ölkəmizin gələcəyinə inamla baxmağa ruhlandırır. Deyir ki, şəhid ailələrinə muxtar respublikamızda göstərilən dövlət qayğısı ölçüyəgəlməzdir. Şəhidlərin Naxçıvan Hava Limanında ehtiramla qarşılanması, dövlət təşkilatlarının şəhidlərə, onların ailə üzvlərinə diqqət göstərməsi cəmiyyətimiz, gələcəyimiz olan uşaqlarımız üçün bir nümunədir. Bu dəstək hazırda da davam etdirilir. Muxtar respublikada bu istiqamətdə aparılan siyasətin nəticəsidir ki, Naxçıvan Şəhər İcra Hakimiyyəti və digər müvafiq dövlət qurumlarının nümayəndələri indi də bizimlə maraqlanır, hər hansı bir problemimiz olarsa, dərhal həll etməyə çalışırlar. Xüsusilə Şəhər İcra Hakimiyyətinin Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsi tərəfindən böyük dəstək, diqqət və qayğı görürük. Mütəmadi olaraq problemimizlə maraqlanırlar. Bütün bunlara görə bir daha dövlətimizə ailəmiz adından minnətdarlığımızı bildiririk.

Arif Niftəliyev isə Vətən müharibəsində sağlamlığını itirmiş qazilərimizdəndir. Onunla görüşmək üçün telefonla əlaqə saxladım. Mövzu ilə bağlı söhbət etmək istəyimi bildirdim. Öyrəndim ki, şöbə müdiri İsmayıl müəllimlə birlikdə liseydə bir yerdə təhsil aldığı, azadlıq mücadiləmizdə şəhadət məqamına yüksəlmiş dostu Sahib Məmmədovun və digər şəhidlərimizin məzarlarını ziyarət etməyə gedəcəklər. O anda fikrimdən birlikdə getmək istəyi keçdi və bu istəyimi qazimizə bildirdim. Razılaşdıq, görüşdük, bir yerdə getdik. Elə söhbətimiz də ziyarət zamanı oldu.

27 yaşlı baş leytenant Arif Niftəliyev sentyabrın 27-dən oktyabrın sonlarınadək müharibədə iştirak edib. Növbəti döyüşlərin birində o, ağır yaralanıb, Bakıya gətiriblər. Hospitalda bir neçə cərrahiyyə əməliyyatı keçirib. Qazimiz göstərilən diqqət və qayğı üçün minnətdarlığını bildirərək dedi:

– Şəhər İcra Hakimiyyətində yeni yaradılmış şöbə əməkdaşları və digər təşkilatların nümayəndələri mənimlə mütəmadi əlaqə saxlayır, səhhətimlə maraqlanırlar. Bu da deməkdir ki, dövlətimiz həmişə öz vətəndaşının yanındadır. Onu da deyim ki, gündəlik olaraq bir həkim və bir tibb bacısı mənə tibbi xidmət göstərir. Sağ olsunlar.

Daha bir qazimizin ona göstərilən dövlət qayğısından razılıq etməsi muxtar respublikada insan amilinin öndə dayanmasını bir daha təsdiq edir.

*Biz də torpaqlarımızın işğaldan azad olunması, ərazi bütövlüyümüzün təmin edilməsi uğrunda canından keçən, ölkəmizin, xalqımızın 30 illik yurd, torpaq həsrətinə son qoyan şəhidlərimizə Allahdan rəhmət diləyir, azadlıq mücadiləsində rəşadət göstərərək sağlamlığını itirən qazilərimizə bundan sonrakı həyatlarında xoş günlər arzulayırıq.*

✍ **Gülcamal TAHİROVA**

# Faciədən doğan qisas



Xocalı... Yaralı yerimiz Qarabağ idisə, qanayan yaramızdır Xocalı... Qürurumuzun, ləyaqətimizin sınağa çəkildiyi, insanlığın utanc anıdır Xocalı... 1992-ci il... Fevralın 25-dən 26-na keçən o müdhiş gecə... Donan, vəhşicəsinə qətl edilən, dünyaya göz açmamış yaşamaq haqqı əlindən alınan körpələrin, ağ duvaq nəsibi olmayan qızların, əlinin xınası qanlı palçığa qarışmış gəlinlərin, yeriməyə taqəti qalmayan, övladlarına yük olmamaq üçün "məni buraxın, siz qaçın", – deyən ahıllarımızın ah-naləsi, övladı qucağında donan, düşmən əlinə keçməsin deyə əli ilə övladını boğan anaların fəryad etdiyi gün!..

Yağı düşmən nə düşünürdü?! Bütün dünya kimi bizim də sonsuzadək gözümüzü, qulaqlarımızı bağlayıb, haqq səsimizi öz fəryadımızda boğacağımızımı?! Təbii ki, çox yanılırdılar! Vaxt yetişdi, vədə çatdı! İlbəil daha da azğınlaşan, iştahası daha da artan, insan qanına gözü doymayan qarı düşmənə "dur!" deməyin məqamı idi!

Bəli, daşıya bilmədiyimiz vicdan yükü, intiqam yükü ağır idi! Dözə bilmirdik! Amma bilirdik ki, hər şeyin vaxtı var! "Haqq nazilər üzülməz", – deyib atalar. Tapdalanan haqqımızı, əlimizdən alınan mənəviyyatımızı geri almağın, bizim olanı bizə qaytarmağın vaxtı çatmışdı! Artıq heç bir güc bizim Xocalının, xocalıların və müxtəlif tarixlərdə vəhşicəsinə həyatına son qoyulmuş doğmalarımızın qisasını almağımıza mane ola bilməzdi! Şəhidlərimizin qanı yerdə qala bilməzdi! "Xocalıya ədalət!" şüarımızı məhz özümüz reallaşdırmalı, ədaləti biz bərpa etməli idik!

Kimsə saxlaya bilərdimi ailəsi gözü qarşısında işgəncələrə məruz qalan, təhqir olunan, qətl edilən oğulları?! Dur demək asan idimi körpəlikdən Qarabağ laylası ilə böyüyən igidlərə?! Əsla!

Faciədən, soyqırımdan doğan qisas daha böyük olurmuş! Qeyrətdən, təəssübdən, nifrətdən doğan intiqam hissi daha qarşısıalınmaz olurmuş! Ana Vətənin çağırış harayı evdəki körpənin, – "ata, getmə!", – sözündən daha ötkün olurmuş! Qucaqda-qundaqda qaçqın düşən oğulların tank üstündə qayıdışı daha möhtəşəm olurmuş!

Ali Baş Komandanına arxalanan, xalqına, ordusuna güvənən, xalqı üçün, namus-qeyrət yolunda canını qurban deyən, şəhadəti qürur sayan oğullar idi 44 günlük DASTAN yazan! O oğullar ki hər gün düşmənlə üz-üzə dayanıb ədalətin bərpa olunacağı günü gözləyirdi! O oğullar ki hər saniyə ürəyində "kaş ki "irəli!" əmri bu gün veriləydi", – deyə düşünürdü! O oğullar ki məhz nə vaxtsa, Xocalının qisasını almaq eşqilə o kişilik rəmzi libasları – hərbi formaları geyinərək üçrəngli bayrağımıza and içmişdilər! Onlar – məhz o oğullar yazdı qələbə dastanımızı! Hər addımında Allaha, bir də dövlətimizin gücünə, iradəsinə arxalanan oğullar! Döyüşdə belə, mərdlik, ləyaqət göstərərək, – sən ailəlisən, özünü qoru, səni gözləyən var, – deyib özünü döyüş yoldaşına sipər edən qəhrəmanlar! Tanksız, topsuz Şuşaya bayraq sancan igidlər idi Xocalının qisasını alanlar!

Göydə Allah, ürəyinin üstündə üçrəngli bayraq, arxasında xalq, dövlət olan, yalnız Ali Baş Komandanına arxalanan oğullar! Vətən sizə oğul, dedi! Xalq sizə qəhrəman dedi! Sizi isə ailəniz, övladlarınız belə, geri çəkilməyə, silahı atmağa vadar edə bilmədi! Ya şəhid olacağıq, ya qalib, – dediniz! Belə də etdiniz!..

Tarix təkrardan ibarətdir – deyiblər! Amma bilməyiblər ki, sizin kimi oğullar tarixi başdan yazacaqdı! Qəddini dikəlt, başını qaldır, Xocalı! İntiqamın alındı! Səni tarix kitablarından tanıyan övladların qisasını qiyamətə qoymadı! Mübarizlər, Poladlar, Cəbrayıllar, Xudayarlar çatdı harayına, Xocalı! Rahat uyuyun, şəhidlərim! Tarixin şahid olduğu şəhadətiniz mübarək! Hələ bu xalq sizin haqqınızda çox dastanlar yazacaq! Sizin kimi igidləri olan Azərbaycan daim yaşayacaq! Üçrəngli, ayulduzlu bayrağımız daim dalğalanacaq!

**Aidə CƏLİLZADƏ**
*Naxçıvan Dövlət Universitetinin İngilis dili və tərcümə kafedrasının baş müəllimi*

## Dövlət proqramı icra olunur

# Naxçıvanda idman inkişaf etdirilir

*Bədən tərbiyəsi və idman insanın kamilləşməsinə və sağlamlığının möhkəmlənməsinə xidmət edir. İdman fiziki sağlamlıqla yanaşı, insanı mənəvi ucalığa dəvət edən, nikbin emosiyanın formalaşmasına səbəb olan, beynəlxalq idman yarışlarında ölkənin tanınmasına xidmət edən mühüm sosial vasitədir. Ölkə Prezidenti cənab İlham Əliyev idmançılarla görüşündə demişdir:* ***"İdman hər bir ölkənin gücünü göstərir. İdmana olan diqqət və qayğı hər bir ölkənin dövlət siyasəti olmalıdır. Azərbaycanda bu belədir. Uğurlarımızın təməlində məhz dövlət siyasəti dayanır. Məhz dövlət siyasəti, idmançılarımızın peşəkarlığı, mütəxəssislərin və federasiyaların birgə fəaliyyəti bu uğurları şərtləndirir".***

Muxtar respublikamızda cəmiyyətin inkişaf edən bütün sahələri kimi, idman da öz çiçəklənmə dövrünü yaşamaqdadır. Bu inkişafın davamlı xarakter daşıması və idmanın kütləviləşməsi istiqamətində görülən işlər əhalidə sağlam həyat tərzinin formalaşdırılması məqsədini daşıyır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 14 fevral tarixli Sərəncamı ilə "2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi muxtar respublikanın idman həyatında yeni mərhələnin başlamasına səbəb olmuşdur. Proqramda müəyyən olunan və mühüm sosial əhəmiyyət kəsb edən tədbirlərdən biri idmançıların əməyinin qiymətləndirilməsidir. Bu istiqamətdə görülən işlər idmana və idmançıya göstərilən diqqətin təzahürü olmaqla yanaşı, həvəsləndirici xarakter də daşıyır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 9 iyul tarixli Sərəncamı ilə idman sahəsi üzrə Babək rayon Vayxır kənd tam orta məktəbinin şagirdi Vüsal Seyidov Ali Məclis Sədrinin xüsusi aylıq təqaüdünə layiq görülmüş və onun adı Gənc İstedadların "Qızıl kitabı"na yazılmışdır. İyulun 14-də – ulu öndərin ölkəmizə rəhbər seçilməsinin 51-ci ildönümündə keçirilən mərasimdə Ali Məclisin Sədri təqaüd kartını gənc idmançıya təqdim etmişdir.

Proqramın icrasına uyğun olaraq 2020-ci ildə 9 məşqçi-müəllim təltif olunmuş, keçirilən yarışlarda qalib olan 66 idmançı idman geyimləri və digər ləvazimatlarla mükafatlandırılmışdır. Həmçinin muxtar respublikada fəaliyyət göstərən idman obyektləri və zallarında aztəminatlı ailələrdən olan 35 yeniyetmə və gəncin ödənişsiz idmanla məşğul olması üçün şərait yaradılmışdır.

Bütün sosial-iqtisadi sahələrdə olduğu kimi, idmanın da inkişafını təmin edən əsas faktorlardan biri maddi-texniki bazanın gücləndirilməsi, bu istiqamətdə infrastruktur layihələrinin icrası, müasir standartlara cavab verən idman obyektlərinin istifadəyə verilməsidir. Aparılan tikinti və yenidənqurma tədbirləri Naxçıvanın idman mərkəzinə çevrilməsi üçün genişhəcmli potensialın formalaşmasına səbəb olur. 2020-ci il may ayının 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirakı ilə Naxçıvan şəhərində istifadəyə verilən Sahil Parkında iki idman meydançası yaradılmışdır. Parkda tennis kortu inşa edilmiş, 4 stolüstü tennis masası quraşdırılmış, velosiped zolağı salınmışdır. Proqramın icrasına uyğun olaraq 2020-ci ildə Uzunoba gölünün ətrafında Naxçıvan Futbol Federasiyasının təlim-məşq kompleksinin inşasına başlanılmış, federasiyanın nümayəndələri kompleksin tikintisində beynəlxalq təcrübədən faydalanmaq üçün Türkiyənin Mersin şəhərində olmuşlar. Bu dövrdə idman infrastrukturunun daha da təkmilləşdirilməsi davam etdirilmiş, Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyasında "Dart" idman növü üzrə yaradılmış yeni bölmə idman qurğuları ilə təmin olunmuşdur. Naxçıvan Dövlət Universitetində Naxçıvan Muxtar Respublikası Atıcılıq Federasiyasının tir bölməsi yaradılmışdır. Muxtar respublikanın kəndlərində stadionların müasir tələblər səviyyəsində qurulması ilə bağlı proqramda nəzərdə tutulan məsələlər də diqqət mərkəzində olmuşdur. Belə ki, 2020-ci ildə Culfa rayonunda mərkəzi stadion, Bənəniyar, Camaldın, Sədərək rayonunda Sədərək kənd stadionları əsaslı təmir olunmuşdur. Həmçinin proqramın icrası məqsədilə mart ayından etibarən Ordubad Rayon Mərkəzi Stadionunun tikintisinə başlanılmışdır. Uzunoba gölünün ətrafında çimərlik futbolu meydançası tikilmiş, Sədərək rayonunun Heydərabad qəsəbəsinin girişində yerləşən istirahət parkında sadə idman qurğuları və guşələri yaradılmış, parkda mini idman meydançası gənclərin istifadəsinə verilmişdir. Həmçinin 2020-ci ildə özəl investisiya qoyuluşu hesabına Kəngərli rayonunda fitnes zalı fəaliyyətə başlamış, süni örtüklü futbol meydançasının yaradılması istiqamətində işlər davam etdirilmişdir.

Dövlət proqramında Naxçıvan Muxtar Respublikasında ildə bir dəfə "İdman festivalı"nın keçirilməsi nəzərdə tutulmuşdur. Qeyd edilən tapşırığın icrası diqqət mərkəzində olmuş, Naxçıvan şəhərində yerləşən "Saat Meydanı" turistik istirahət mərkəzində 5 mart – Bədən Tərbiyəsi və İdman Gününə həsr olunmuş "İdman festivalı" keçirilmişdir.



Festivalda idman federasiyalarının, uşaq-gənclər idman məktəblərinin, Naxçıvan Dövlət Universitetinin idman klubu və idman fakültəsinin, Şərur Rayon Ağır Atletika Bölməsinin və "Xatun" Bədii Gimnastika İdman Klubunun nailiyyətləri nümayiş etdirilmişdir.

Proqramda nəzərdə tutulan tapşırıqların icrası idmanın kütləviliyinin təmin edilməsinə şərait yaratmışdır. Belə ki, bu dövrdə idman sahəsində Naxçıvan şəhərində keçirilən 23 tədbirdə 840, Şərur rayonunda keçirilən 23 tədbirdə 730, Babək rayonunda keçirilən 17 tədbirdə 648, Culfa rayonunda keçirilən 20 tədbirdə 700, Ordubad rayonunda keçirilən 19 tədbirdə 680, Şahbuz rayonunda keçirilən 20 tədbirdə 700, Kəngərli rayonunda keçirilən 14 tədbirdə 524, Sədərək rayonunda keçirilən 15 tədbirdə 504 idmançı iştirak etmişdir.

Muxtar respublikamızda yeni inkişaf dövrünü yaşayan və xüsusi əhəmiyyət kəsb edən idman növlərindən biri şahmatdır. Şahmat bu idman növü ilə məşğul olan şəxslərdə zehni fəaliyyətin, konsantrasiyanın və sağlam iradənin inkişafına ciddi təsir göstərir. Elmi araşdırmalar təsdiq edir ki, yeniyetmə dövründən şahmatla məşğul olan şəxslərdə planlaşdırma, analiz, ehtimallara qarşı hazırlıq və qarşıya çıxan imkanların dəyərləndirilməsi kimi qabiliyyətlər mükəmməl səviyyədə formalaşır. Muxtar respublikanın ümumtəhsil məktəblərində şahmat dərslərinin tədrisi şagirdlər arasında hələ uşaqlıq dövründən bu idman növünə marağın oyanmasına və gələcək peşəkar idmançıların formalaşmasına səbəb olur. Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının həyata keçirdiyi kompleks tədbirlər isə bu sahənin inkişafının davamlı xarakter daşımasına şərait yaradır. Federasiyanın təşkilatçılığı ilə beynəlxalq nüfuzlu turnirlərlə yanaşı, muxtar respublika səviyyəli yarışlar, təlim-məşq toplanışları, müxtəlif mövzulu interaktiv dərslər, ümumtəhsil məktəblərində şahmat fənnini tədris edən müəllimlər üçün seminarlar, sertifikasiya imtahanları keçirilir. Dövlət proqramının icrasına uyğun olaraq Naxçıvan şahmatçılarının 13 beynəlxalq, 6 ölkə səviyyəli onlayn yarışda iştirakının təmin edilməsi bu sahədə 2020-ci ildə əldə olunan uğurlardan xəbər verir.

Bədən tərbiyəsi və idmanın kütləviləşməsi sağlam və güclü gənc nəslin formalaşmasına imkan yaradır. Məhz təşkil olunan idman tədbirləri gənclərin fiziki hazırlıq səviyyəsinin yüksəldilməsi və onların vətənin müdafiəsinə hazırlanması sahəsində müstəsna rol oynayır. Proqramda bu məqsədlə müəyyən edilən tədbirlərin icrası 2020-ci ildə də diqqətdə saxlanılmış, martın 10-da ümumtəhsil məktəbləri arasında "Şahin" hərbi-idman oyununun Naxçıvan şəhər mərhələsi, 4-9 may tarixlərdə hərbi beşnövçülük, avqustun 6-da yeniyetmə və gənclər arasında interaktiv tir üzrə birinciliklər keçirilmişdir. Bu tədbirlərin keçirilməsində məqsəd gənclərə vətənpərvərliyin və milli-mənəvi dəyərlərin təbliğ edilməsindən ibarət olmuşdur.

İdmanın cəmiyyət üçün sosial əhəmiyyətini xarakterizə edən digər mühüm cəhəti isə gənclərin zərərli vərdişlərdən uzaqlaşdırılmasında və sağlam ruhda böyüməsində oynadığı roldur. Bu istiqamətdə keçirilən tədbirlər yeniyetmə və gənclərin faydalı fəaliyyət növü ilə məşğul olmasına və asudə vaxtın səmərəli təşkilinə imkan yaradır. Proqramın icrası məqsədilə 2020-ci il fevralın 27-də "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq!" devizi ilə Şərur və Ordubad, iyulun 23-də Şahbuz və Ordubad rayon voleybol komandaları arasında yoldaşlıq görüşləri, boccia üzrə Babək rayon birinciliyi keçirilmişdir. Həmçinin muxtar respublikanın ümumtəhsil müəssisələrində yetkinlik yaşına çatmayanlar arasında bədən tərbiyəsi və idman vasitəsilə zərərli vərdişlərin qarşısının alınması məqsədilə "Sağlam həyat tərzi", "Tütün məhsullarının istifadəsinin zərərli təsirləri" və "İdmana cəlb olunma" mövzularında 33 maarifləndirici tədbir keçirilmişdir.

İdmanın faydalı tərəflərindən biri də cəmiyyətin müxtəlif sosial kateqoriyalarını təmsil edən şəxslərin fərdi və kollektiv inkişafını bərabər səviyyədə təmin etməsidir. Sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiya olunmasında idman əvəzolunmaz rola malikdir. Bu fəaliyyət onların bacarıqlarının müxtəlif idman istiqamətləri üzrə aşkar olunmasına və asudə vaxtlarının



məqsədəuyğun təşkilinə imkan yaradır. Proqramın icrası məqsədilə 2020-ci il fevralın 19-da sağlamlıq imkanları məhdud şəxslər arasında qol güləşi üzrə muxtar respublika birinciliyi, 5 mart – Bədən Tərbiyəsi və İdman Günü münasibətilə boccia idman növü üzrə muxtar respublika və Kəngərli rayon birinciliklərı, Paralimpiya Federasiyasının idmançıları arasında "Peleton" intellektual oyunu, Şərur və Sədərək rayon komandaları arasında stolüstü tennis üzrə yoldaşlıq görüşü, 15 İyun – Milli Qurtuluş Günü münasibətilə yüngül atletika üzrə Naxçıvan şəhər birinciliyi keçirilmişdir. Bu dövrdə sağlamlıq imkanları məhdud şəxslərin bədən tərbiyəsi və idman vasitəsilə reabilitasiyası, sosial adaptasiyası və cəmiyyətə inteqrasiyasının təmin edilməsi üçün bu sosial kateqoriyadan olan 10 nəfərin Naxçıvan Üzgüçülük Mərkəzində üzgüçülük idman növü ilə məşğul olmasına şərait yaradılmışdır. Proqramın icrasına uyğun olaraq 4 sağlamlıq imkanları məhdud idmançı reabilitasiya üzrə ehtiyac olaraq 7 reabilitasiya vasitəsilə təmin olunmuş, kütləvi informasiya vasitələrində bu sahə üzrə həvəsləndirici materiallar dərc edilmişdir.

Yeniyetmə və gənclərin təhsil prosesinə paralel olaraq müxtəlif idman sahələri ilə məşğul olmaları bir tərəfdən həmin prosesin effektivliyinin artmasına, digər tərəfdən isə gələcək peşəkar idmançıların müəyyənləşdirilməsinə səbəb olur. Muxtar respublikada fəaliyyət göstərən təhsil müəssisələrində idmanın inkişafı istiqamətində görülən işlər gənclərdə davamlı fiziki tərbiyə vərdişlərinin formalaşması ilə yanaşı, idman sahəsində ixtisaslı kadr hazırlığının təşkili üçün də yeni imkanlar yaradır. Dövlət proqramının icrası məqsədilə 2020-ci ildə 118 məktəbdə 185 idman klubu yaradılmış, noyabrın 20-də klubların təqdimatı keçirilmişdir. Məktəblərdə fiziki tərbiyə dərslərinin yüksək səviyyədə tədrisi diqqətdə saxlanılmış, ixtisaslı kadr hazırlığına dəstək məqsədilə fevralın 17-dən başlayaraq Naxçıvan Dövlət Universitetinin 19, "Naxçıvan" Universitetinin 42 tələbəsinin ümumtəhsil müəssisələrində təcrübə keçməsi üçün şərait yaradılmışdır. Həmçinin bu dövrdə fiziki tərbiyə üzrə 35 ixtisaslı müəllim işlə təmin olunmuşdur. Ali təhsil müəssisələrində hamiliyə götürülən ixtisaslarda təhsil alan gənclərin muxtar respublikanın idman həyatında aktiv iştirakı da diqqət mərkəzində olmuş, 4 tələbə haqqı ödənilməklə futbol oyunlarında hakim qismində iştirak etmişdir.

Gənclərin peşəkar idmançı kimi formalaşmasında planlı və mütəmadi olaraq keçirilən məşqlərlə yanaşı, təcrübəli məşqçilərin bilik və bacarıqlarından istifadə olunması da xüsusi əhəmiyyət kəsb edir. Dövlət proqramının icrasına uyğun olaraq təcrübəli məşqçilərin iştirakı ilə keçirilən təlimlər və görüşlər gənc idmançıların fəaliyyətinin düzgün istiqamətləndirilməsində əsaslı rol oynayır. 2020-ci ildə Azərbaycan Futbol Federasiyaları Assosiasiyasından dəvət olunmuş hakimlərin iştirakı ilə Naxçıvan Dövlət Universitetinin Bədən tərbiyəsi və idman, Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi ixtisasları üzrə təhsil alan tələbələrin məşqçilik və hakimlik kurslarına cəlbi məqsədilə seminar keçirilmişdir. Həmçinin Azərbaycan Milli Paralimpiya Komitəsinin boccia üzrə milli komandasının baş məşqçisi ilə muxtar respublikada sağlamlıq imkanları məhdud 18 yaşadək bocciaçıların, komitənin stolüstü tennis üzrə uşaq milli komandasının baş məşqçisi ilə bu idman növü ilə məşğul olan paralimpiyaçıların onlayn formatda görüşü təşkil edilmişdir. Eyni zamanda muxtar respublikaya təcrübəli məşqçilərin dəvət olunması da davam etdirilmişdir. 21-25 sentyabr tarixlərdə Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının əməkdaşları tərəfindən Naxçıvanda futbol məşqçiləri üçün "C" kateqoriyalı məşqçilik kursları təşkil olunmuşdur. Sosial şəbəkələr üzərindən canlı yayım vasitəsilə üçqat dünya və Avropa çempionu, olimpiya oyunlarının bürünc mükafatçısı, sərbəst güləşçi Hacı Əliyevlə, karate üzrə beşqat dünya çempionu Rafael Ağayevlə, kapoeyra idman növü üzrə dünya çempionu, Kapoeyra Federasiyasının məşqçisi, milli komandanın kapitanı Fərid Allahverdiyevlə gənclərin görüşü keçirilmişdir.

Dövlət proqramının icrasına uyğun olaraq "İdman könüllüləri"nin əsasnaməsi hazırlanmış, 20 gənc idman könüllüsü təlimlərə və xarici dil kurslarına cəlb olunmuşdur. "İdman festivalı"nda iştirak edən qonaqların qarşılanması, Naxçıvan şəhəri ilə tanışlığı, oteldə yerləşdirilməsi və yola salınmasında "İdman könüllüləri" iştirak etmişdir. Həmçinin 12 avqust – Beynəlxalq Gənclər Günü münasibətilə muxtar respublikada təhsil alan əcnəbi tələbələr arasında təşkil olunan "Labirint" stolüstü oyununda könüllü gənclərin hakim qismində iştirakı təmin olunmuşdur.

İdmanı kütləviləşdirən ən mühüm faktorlardan biri bu istiqamətdə həyata keçirilən maarifləndirmə tədbirləridir. Bu tədbirlər bədən tərbiyəsi və idmanın gündəlik həyata müsbət təsiri və sağlamlığın qorunmasındakı rolu barədə insanlar arasında təbliğat işinin aparılmasını təmin edir. Proqramın icrası məqsədilə 2020-ci ildə yeniyetmə və gənclər arasında idman növlərinin təbliği ilə bağlı "Bədən tərbiyəsi və sağlamlıq" adlı bukletlər hazırlanmışdır. "Evdə qal, idmandan qalma!", "Bilmədiklərimiz", "İdman vaxtı" başlıqlı aksiyalar çərçivəsində sosial şəbəkələr vasitəsilə müxtəlif idman növlərinin üstünlükləri tanıdılmış, evdə məşğul oluna biləcək ümumi inkişaf hərəkətləri təbliğ olunmuşdur.

*Bu gün muxtar respublikada uşaq, yeniyetmə və gənclərin idmana cəlbi, onlara sağlam həyat tərzinin aşılanması işləri diqqət mərkəzində saxlanılır. Yaradılan müasir idman mühiti gənc nəslin bədən tərbiyəsi və idmana olan marağını artırır, onların sağlamlıqlarını təmin etməklə yanaşı, dünyagörüşlü və vətənpərvər böyümələrinə də səbəb olur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi:* ***"Bədən tərbiyəsi və idman insanın hərtərəfli inkişafını, sağlam həyat tərzini təmin edir, əhalinin əmək qabiliyyətini yüksəldir, uzunömürlülüyü artırır, zərərli vərdişlərin qarşısını almaqla gəncləri fiziki və mənəvi cəhətdən vətənin müdafiəsinə hazırlayır…"***

**"Şərq qapısı"**

### *İtmişdir*

Hüseynov Mükərrəm Həzi oğlunun adına verilmiş JN-328A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 178